AZƏRBAYCAN
ELM FONDU

# *Ümummilli lider Heydər Əliyevin 100-illik yübileyinə həsr olunmuş «Əsas Qrant Müsabiqəsi- 2023»*

AZƏRBAYCAN
ELM FONDU

Elm Fondunun elmi-tədqiqat və innovasiyalar sahəsində proqram və təşəbbüsləri haqqında daha ətraflı məlumatı internet saytından əldə etmək olar:
https://www.aef.gov.az/az/generic/menu/Detail/113/menu/grant/1


Azərbaycan Elm Fondu
Ünvan: AZ 1025,
Bakı şəhəri,
Yusif Səfərov küçəsi-27,
9-cu mərtəbə
**Telefon:** (+994 12) 489 08 94
**Faks:** (+994 12) 489 08 92
**Elektron ünvan:** info@elmfondu.az




Dövlətin elmi informasiya və innovasiya ehtiyatlarının artırılması, ölkənin təbii resurslarının, mədəni və tarixi irsinin öyrənilməsinin gücləndirilməsi, aparılan araşdırmaların səmərəliliyinin artırılması və dünya elm məkanında Azərbaycanın layiqincə təmsil olunmasının təmin edilməsi, elmi-tədqiqatlar sahəsində fəaliyyət göstərən xarici və beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, xarici təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlərin görülməsi, respublikada və xarici ölkələrdə müvafiq funksiyaları yerinə yetirən dövlət qurumları, qeyri-hökumət və digər təşkilatlarla əməkdaşlığın qurulması, elmi informasiya mübadiləsinin aparılması, lazım gəldikdə birgə elmi-tədqiqat layihələrinin yerinə yetirilməsi, həmçinin elmin kütləviləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi və s. Elm Fondunun qarşısına qoyulan vəzifələrdəndir. Fond fəaliyyətə başladığı ilk gündən etibarən qrant müsabiqələri yolu ilə ölkədə elmin inkişafını çevik şəkildə dəstəkləmək, Azərbaycanda əldə olunan elmi nəticələri ölkə hüdudlarından kənarda tanıtmaq, elmi təşkilat və qurumlarda müxtəlif tədqiqatlarla bağlı maddi-texniki bazanı ən müasir səviyyədə yeniləmək və ya gücləndirmək, eyni zamanda, kadr hazırlığına xüsusi diqqət yetirmək, müxtəlif elmi tədbirlər keçirmək, alimlərin xaricə elmi tədbirlərə göndərilməsini, qısamüddətli təcrübəartırmada iştirakını təmin etmək, elmi nəşrləri dəstəkləmək və başqa bu kimi məsələlərin həllini bir məqsəd kimi müəyyənləşdirmişdir.



# ƏSAS QRANT MÜSABİQƏSİ 2023

# MAIN COMPETITION OF GRANTS 2023

AEF-MCG-2022-1(42)

BAKI-2023

AZƏRBAYCAN ELM FONDU

# «Əsas Qrant Müsabiqəsi 2023»: Tədqiqat və innovasiya

**«Əsas Qrant Müsabiqəsi 2023» - ün** proqramı qabaqcıl texnologiyaların, kəşflərin və perspektivli inkişafların sayını artırmaq üçün nəzərdə tutulub. Bu müsabiqə elmi tədqiqatlardan tutmuş nümayiş layihələrə və innovasiyalara qədər geniş spektrli fəaliyyətləri dəstəkləyir. **«Əsas Qrant Müsabiqəsi 2023»** -ün əsas məqsədi müsabiqə əsasında ayrılan maliyyə vəsaiti hesabına elmi səviyyəni yüksəltmək və yeganə meyar olan tədqiqatın elmi əhəmiyyətini rəhbər tutaraq alimlərin özləri tərəfindən təklif olunan mövzular üzrə tədqiqatları dəstəkləməkdir. **AEF**-in qrantları tədqiqat qrupları tərəfindən həyata keçirilən tədqiqat layihələrinə ayrılır. Perspektivli gənc alimlər, eləcə də öz elmi sahəsində lider olan tədqiqatçılar bu qrant üçün müraciət edə bilərlər. Müraciət edənlərin yaşı[1], eləcə də tədqiqatın tematik sahələri ilə bağlı heç bir məhdudiyyət yoxdur. Qeyd etmək vacibdir ki, qrant şərtlərinə əsasən, tədqiqat rəhbəri və iştirakçılar layihə müddətində Azərbaycanda qalması tələb olunur.



*[1]«Əsas qtant müsabiqəsi -2023» proqramına magistr və ya daha yüksək dərəcəsi olan alimlər müraciət edə bilərlər.*



# «Əsas Qrant Müsabiqəsi 2023» (AEF-MCG-2023-1(42)) aşağıdakı şərtlər daxilində elan edilir:

| | |
|---|---|
| Layihələrin növləri | Fundamental, tətbiqi, kompleks və kəşfiyyat xarakterli elmi-tədqiqat layihələr |
| Layihələrin maliyyələşdirilmə həcmi | **300 000 manatadək** maliyyə həcmli layihələr |
| Layihələrin icra müddəti | 2 il |
| Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbul tarixləri | Layihələr **e-QRANT sistemi** ilə onlayn olaraq **2023-ci il 06 mart** tarixindən başlayaraq qəbul olunur<br><br>Layihələrin **e-QRANT sistemi** ilə qəbulunun son tarixi **2023-ci il 04 may** saat 23:59-dur |
| Çap versiyasının qəbulu üçün son tarix | **2023-ci il 05 may saat 17.00-dır** [1] |

*[1] **e-QRANT sistemi** vasitəsilə təqdim olunmuş layihənin son PDF versiyası **(1 nüsxə Azərbaycan dilində və 1 nüsxə ingilis dilində, sənədlər (vəsiqə, diplomlar, iş yerindən təqdimat))** çap olunmaqla Elm Fondunun icraçı direksiyasına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) həftənin iş günlərində **(bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək** birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə təqdim olunmalıdır.*

# ELM SAHƏLƏRİ VƏ İSTİQAMƏTLƏRİNİN TƏSNİFATI

https://www.aef.gov.az/az/generic/menu/Detail/123/menu//

### FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ



### YER HAQQINDA ELMLƏR



### BİOLOGİYA, TİBB VƏ AQRAR ELMLƏRİ



### KİMYA ELMLƏRİ



### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR



# Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:

- Bu qrantlar müvəqqəti olaraq yaradılmış elmi-yaradıcı kollektivlər tərəfindən təqdim edilmiş layihələrə verilir
- Müsabiqəyə təqdim edilən hər bir layihə rəhbərlə təmsil olunmalıdır.
- Müsabiqəyə orta saylı **(layihə rəhbəri və icraçılar daxil olmaqla 5 nəfərdən 10 nəfərədək)** müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan layihələr qəbul olunur.
- Elm Fondunun davam edən qrant layihələrinin rəhbər və icraçıları, bir qayda olaraq, bu müsabiqədə iştirak edə bilməzlər.
- Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).

# Layihələrin tərtibatı və təqdim olunması:

Bu müsabiqəyə layihələr yalnız Elm Fondunun **"e-QRANT"="Qrant layihələrinin Elektron İdarəolunması Sistemi"** (**http://e- grant.aef.gov.az/**) vasitəsilə təqdim edilə bilər. Bu sistem **"ASAN-İmza"**dan istifadəni nəzərdə tutur.

**"Asan-imza"**nı həm layihə rəhbəri, həm də layihədə iştirakı nəzərdə tutulmuş bütün iştirakçılar əldə etməli, bu şəxslərin hamısı qeydiyyatdan keçməli və **"virtual şəxsi kabinet"**lərini formalaşdırmalıdırlar. Layihə bir qayda olaraq **"e-QRANT"** sistemində qeydiyyatdan keçmiş layihə rəhbəri tərəfindən təqdim edilir, layihə rəhbəri yalnız qeydiyyatdan keçmiş və **"virtual şəxsi kabinet"**ə malik şəxsləri layihəyə iştirakçılar qismində dəvət edə bilər. Əks halda elmi kollektivin formalaşdırılması mümkün olmayacaqdır.

Texniki problemlərlə qarşılaşmamaq üçün layihənin təqdimini son günlərə saxlamamaq tövsiyə olunur. Fondun internet portalında **"e-QRANT"** sistemində qeydiyyatdan keçməklə bağlı müvafiq təlimat yerləşdiriləcək və məsləhət seminarlarında izahlar veriləcəkdir.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Elm Fondunun 2022-ci il 27 oktyabr tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda tanış olmaq olar.

# Ümumi şərtlər :

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Elm Fondunun icraçı direksiyası ilə e-mail və ya telefon vasitəsilə əlaqə saxlanılması tövsiyə olunur.

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində, **e-QRANT** sisteminə qoşulma və ondan istifadə üzrə, həmçinin qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** keçirilməsi nəzərdə tutulmuşdur.





## *Hörmətli qrant iddiaçıları!*

**«Əsas Qrant Müsabiqəsi 2023»** üzrə 2023-cü ildə göstərilən tarix və saatlarda məsləhət seminarları keçiriləcəkdir. Seminarların keçirilməsində məqsəd qrant iddiaçılarına müsabiqəyə təqdim olunacaq layihələrin tərtibatı, həmçinin **e-QRANT sistemindən** və **ASAN-imzadan** istifadə üzrə məsləhətlərin verilməsi, ortaya çıxan sualların cavablandırılmasıdır. Seminarlar Azərbaycan Elm Fondunun ofisində **(Bakı şəhəri, Y.Səfərov küçəsi, 27, 9-cu mərtəbə)** keçiriləcəkdir. İştirak etmək istəyənlər **(012) 489 08 94** nömrəli telefona zəng vurmaqla və ya **seminar@elmfondu.az** elektron poçt ünvanına məktub yazmaqla qeydiyyatdan keçə bilərlər. Seminarlarda iştirak üçün qeydiyyatdan keçmiş, lakin seminarda iştirak etməyən iddiaçılar növbəti seminara yalnız yer olduğu təqdirdə buraxılacaqlar; xahiş olunur nəzərə alasınız ki, seminarda iştirak etməməklə başqa potensial iddiaçının iştirakını məhdudlaşdırırsınız. **Seminarlarda yalnız qeydiyyatdan keçmiş iştirakçılar iştirak edə bilər.**

## *Seminar cədvəli*

| № | TARİX | SAAT |
|---|---|---|
| 1-ci seminar | 28.03.2023 | 11.00 |
| 2-ci seminar | 30.03.2023 | 15.00 |
| 3-cü seminar | 04.04.2023 | 11.00 |
| 4-cü seminar | 06.04.2023 | 15.00 |
| 5-ci seminar | 11.04.2023 | 11.00 |
| 6-cı seminar | 13.04.2023 | 15.00 |

LIKE US!

fb.com/Elmfondu

FOLLOW US!

twitter.com/Elm_Fondu_AZE

FOLLOW US!

@science_development_foundation

SUBSCRIBE US!

youtube.com/elm fondu



AZƏRBAYCAN
ELM FONDU

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK